Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Sosial-iqtisadi tərəqqidə regionların payı artır

**İqtisadiyyatın müasirləşdirilməsi, sosial kapitalın artırılması, insanın yaşaması, işləməsi üçün rahat şərait yaratmaq yolu ilə cəmiyyətdə sabitliyin təmin edilməsi və vətəndaşların rifahının yüksəldilməsi ölkəmizdə dövlət siyasətinin əsas məqsədlərindən biridir.**

Azərbaycanın inkişafı dövlət və cəmiyyət, dövlət və şəxsiyyət, dövlət və biznes arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə yönəlmiş maddi rifahı yüksək olan ailə, güclü regionlar, intellektual ölkə, tərəfdaş dövlət kimi prioritetlər üzərində qurulub. Buna nail olmaq məqsədilə ölkəmizin hər bir vətəndaşı üçün ən aktual məsələlərin həlli təmin ediilr Onlara misalolaraq aşağıdaklar göstərilə bilər: gəlir, məşğulluq, mənzil, təhlükəsiz nəqliyyat, sərfəli və yüksək texnologiyalı səhiyyə xidmətləri, keyfiyyətli təhsil, regional inkişaf. Dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsi məqsədilə tam sahəvi siyasətə keçid də əsas hədəflər sırasındadır. Xüsusilə sənayenin inkişafı strategiyalarının işlənib hazırlanmasına və bütün mülkiyyət formalı müəssisələrin, ilk növbədə, xarici bazarlarda maraqlarının təşviqinə diqqət yetirilir. Bunun üçün regionların potensialından da geniş istifadə olunur.

### 20 ildə regionlara 104 milyard manat investisiya qoyulub

İstənilən ölkə üçün konkret ərazilərin müasir iqtisadi inkişafı davam edən sosial-iqtisadi və struktur dəyişikliklərinin yüksək dinamikası, eləcə də regionların differensiasiyası ilə səciyyələnir. Buna görə də regionların sosial-iqtisadi tərəqqisi ümumi təsərrüfatının inkişafının tərkib hissəsidir. Regional inkişafda qabaqcıl təcrübələrin öyrənilməsi müasir iqtisadi şəraitdə aktualdır və tələb olunur.

Qeyd edilən istiqamətlərdə ölkəmiz tərəfindən mühüm addımlar atılır. Xatırladak ki, ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə prezident İlham Əliyevin hələ 2003-cü il 24 noyabr tarixli fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" strategiya ölkənin hərtərəfli inkişafına dair davamlı və sistemli proqramların əsasını yaradıb. Bu fərmanın davamı olaraq 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı üzrə dörd dövlət proqramı qəbul edilib. Bu proqramlar çərçivəsində 104 milyard manat investisiya qoyulub ki, bunun nəticəsində regionların siması xeyli dəyişib. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə artıb, 2004-cü ildən bəri bölgələrdə 1,8 milyondan çox yeni iş yeri və 52 mindən çox yeni müəssisə yaradılıb. Regionlarda 8 hava limanı tikilib və ya yenidən qurulub, Laçın hava limanının tikintisi davam edir. 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər, 3300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 Olimpiya İdman Kompleksi tikilib və ya təmir olunub. Araşdırmalara əsasən, 2003-2022-ci illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 43 minədək investisiya layihəsinin maliyyələşməsinə 2.8 milyard manatdan çox güzəştli kredit verilib. Bu layihələr hesabına 178 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb ki, bunun da 80 faizdən çoxu regionların payına düşür. Güzəştli kreditlərin 75



faizi regionlara ayrılıb. Regionlarda fermer təsərrüfatlarının sərmayə ehtiyacının müəyyən hissəsinə dövlət tərəfindən birbaşa və dolayı dəstək verilməsi sayəsində kənd təsərrüfatı məhsulları istehsalının artımı təmin edilib. Xatırladaq ki, ilkin olaraq bütün bitki növlərinə gübrə və sürtkü yağları üçün əkin subsidiyasının verilməsinə başlanılıb, nəticədə istehsal xərclərinin bir hissəsi dövlət tərəfindən ödənilib. Bu xüsusda ekspert Cəfər İbrahimli ötən illərdə aqrar sektorda əldə olunan nəticələrin yüksək olduğunu bildirir: "Paralel olaraq istehsalın davamlılığı və aqrotexniki qulluğun vaxtında aparılması üçün kənd təsərrüfatı texnikası və avadanlıqlarının güzəştli qiymət və uzunmüddətli kreditlə təklif olunması istehsalın stimullaşdırılmasına əlavə təkan verib.. 2017-ci ilədək 28000 ədəd texnika və avadanlıq güzəştli qiymətlə sahibkarlara satılmışdısa, cari ildə bu rəqəmin 50000 ədəddən çox olduğu təxmin edilir. 2010-cu ildən etibarən 40-60 faiz güzəşt tətbiq edilməklə lizinq vasitəsilə fermerlər üçün cins damazlıq heyvanların satışına başlanılmış və bütün bunlar intensiv heyvandarlıq təsərrüfatlarının yaradılmasına səbəb olub, nəticədə ət və süd məhsullarının idxaldan asılılığı azaldılıb". Onun sözlərinə görə, cari ilədək 100 minə yaxın cins damazlıq heyvanlarının bu şərtlərlə fermerlərə satışının təmin edilməsi nəticəsində süd istehsalı 2 milyon tona çatıb, bu da özünü təmin etmə səviyyəsində 90 faizə yaxınlaşıb. Beləliklə, ölkənin tərəqqisində regionların payı artır.

### Regionların inkişafında innovativ sistem və metodların tətbiqinə böyük diqqət yetirilir

Hazırda ölkəmizdə regionların fəaliyyətində innovativ sistem və metodların tətbiqinə böyük diqqət yetirilir. Burada innovativ sosial-iqtisadi inkişafın üsullarından biri kimi regional fəaliyyətin reytinq qiymətləndirilməsinin tətbiqi mexanizmindən də istifadə olunur. Regionların sosial-iqtisadi inkişafı üçün effektiv innovativ reytinq sisteminin yaradılması onların davamlı inkişafının qiymətləndirilməsi üçün mühüm hesab olunur. Bu, Azərbaycanın regionlarına onlar arasında mövcud olan fərqləri və qeyri-mütənasibliyi müəyyən etməyə, bəzi regionların potensialından səmərəsiz istifadə ilə bağlı səbəbləri müəyyən etməyə imkan verir. Həmçinin regional inkişafın qiymətləndirilməsi üçün reytinq göstəricilərinin hesablanmasının müxtəlif üsullarının müsbət və mənfi tərəflərini müəyyən etmək üçün müqayisəli təhlil aparmaq imkanı yaranır.

Ölkənin səmərəli sosial-iqtisadi inkişafı, müasir istehsal, nəqliyyat və digər infrastruktura əsaslanan balanslaşdırılmış regional iqtisadiyyatın yaradılması da xüsusi diqqət mərkəzində yer alır. Eyni zamanda, ölkəmizin sosial-iqtisadi inkişafı getdikcə innovativ xarakter alır və bununla da regional səviyyədə innovasiya proseslərinin davamlı dinamikasını təmin etmək üçün dövlət qarşısında yeni vəzifələr qoyulur. Bütövlükdə ölkənin, eləcə də onun regionlarının innovativ inkişafının müəyyənedici şərti müxtəlif səviyyələrdə innovativ fəallığı və rəqabət qabiliyyətini artıran bütün sahələr kompleksinə effektiv tənzimləyici təsirdir. İnnovasiya fəaliyyətinin həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri baxımından yüksək səviyyədə olması da diqqət mərkəzindədir.

*Ramil QULİYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**